# 100 illik dövlətçilik ənənələrinin uğurlu davamı

**Avropanın fəlsəfi-siyasi fikir tarixinin görkəmli simalarından olmuş İmmanuel Kant yazırdı ki, hər bir xalqın böyüklüyü onun zəngin mənəvi potensialı hesabına dünya irsinə bəxş etdiyi dəyərli incilərlə ölçülür. Mövcudluq tarixinin bütün mərhələlərində bəşər sivilizasiyasına sanballı töhfələr vermiş müdrik xalqımız, bu mənada, özünün zəngin dövlətçilik ənənələri ilə qürur duyur. Yaxın Şərq, ümumən, müsəlman dünyasını əhatə edən böyük coğrafi-siyasi məkan üzrə ilk demokratik, hüquqi və dünyəvi dövlətin məhz Azərbaycanda elan edilməsi, ilk operanın, müasir ruhlu qəzetin, Avropa tipli universitetin məhz respublikamızda yaranması, qadınlara ilk dəfə olaraq seçki hüququnun verilməsi hər birimizin milli iftixar yerimizdir.**



1918-cü ilin 28 mayında yaranmış Azərbaycan Xalq Cümhuriyyəti müəyyən obyektiv və subyektiv səbəblər üzündən 23 ay sonra süquta uğrasa da, xalqımız milli özünüdərk və özünəməxsusluq duyğularını, milli "Mən"ini sovet imperiyasının dövründə də yaşatmağa nail oldu. Zəngin mədəniyyətə malik mükəmməl etnos kimi bütün dünya tərəfindən etiraf olunan azərbaycanlıların genetik birliyi, eyni etnomədəni sistemə mənsubluğu, həmçinin milli dövlətçilik təfəkkürü bu kimi amillərə qarşı kəskin qadağalar müəyyənləşdirmiş Sovetlər Birliyi dövründə də məhdudlaşdırıla bilmədi.

Bu günlərdə anadan olmasının 95-ci ildönümünü qeyd etdiyimiz Heydər Əliyev dühası Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini - ötən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla, əsrin sonlarına doğru - müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurdu. Böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etdi. Amerikanın böyük dövlət xadimi olmuş Teodor Ruzvelt demişdir: *"Ən çox o siyasətçi uğur qazanır ki, xalqın rifahı naminə düşündüklərini əməli fəaliyyəti ilə reallaşdıra bilir".* Ulu öndər Heydər Əliyevin ötən əsrin ortalarında Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilməsi, bu mənada respublikamızı həqiqi müstəqilliyə aparan nurlu yolun başlanğıcı kimi tarixiləşdi. Bu mərhələdən, Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqamətini də məhz xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil edirdi.

Ulu öndər gənc nəslin siyasi sistemin buxovlarından xilas edilməsinə, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi ideoloji təməl prinsipləri əsasında milli ruhun hədsiz yüksəlişinə nail oldu. Millətin qəlbində illərdən bəri sıxışdırılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin formalaşdırdı. Ulu öndər müasir Azərbaycan dövlətçiliyinin ideoloji-siyasi əsaslarını yaradaraq xalqı milli istiqlala qovuşdurmaqla yanaşı, müstəqilliyin daimi və dönməz olmasını təmin etdi. Əsrlər boyu əxz etdiyi dövlətçilik təfəkkürünü, özünəməxsus milli-mənəvi dəyərləri, adət-ənənələri, mental xüsusiyyətləri müdrik rəhbərinin sarsılmaz iradəsi, qətiyyəti sayəsində vahid sistem halına gətirərək özünütəsdiq imkanı qazanmış xalqımız hələ keçmiş ittifaq dövründə gələcək müstəqilliyinə etibarlı təməl formalaşdırmağa müvəffəq oldu.

Əsrlər Avropa və Şərqin siyasi fikir tarixinin görkəmli simaları - böyük filosofları liderlik institutunun tarixdəki rolunu aydınlaşdırmağa çalışmış, bir-birindən maraqlı və cəlbedici elmi qənaətlərə gəlmişlər. Fəqət liderlik anlayışı ilə bağlı ən fərqli mülahizələr, elmi nəzəriyyə və baxışlar bir gerçəklik üzərində qovuşur, ortaq nöqtəyə gəlir: lider bir çox fərdi keyfiyyətlərinə görə seçilən hansısa şəxsiyyətin tükənməz optimizm, yüksək xarizma, fitri idarəçilik keyfiyyətləri, kütlələri konkret ideya, məram və məqsədlər ətrafında səfərbər edib inandırmaq, ətrafında toplamaq, arxasınca aparmaq bacarığıdır. Məhz belə liderlərdən olan ümummilli lider Heydər Əliyev həmin illərdə müstəqil Azərbaycan üçün möhkəm siyasi və iqtisadi təməl yaratmaqla yanaşı, mütərəqqi parlamentarizm ənənələrinin əsasını qoymuş, yüksək siyasi iradə göstərərək qanunverici orqanın xalqın milli maraqlarına uyğun çevik və işlək fəaliyyətini təmin etmişdi. Ötən əsrin 50-60-cı illərində respublikada milli-mənəvi dirçəliş istiqamətində müəyyən ehtiyatlı addımlar atılsa da, bu sahədə kompleks tədbirlər məhz Heydər Əliyevin 1969-cü ilin iyul ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsindən sonra başlandı.

Böyük strateq Heydər Əliyev ədalətli rəhbər kimi ilk gündən qanunçuluq və hüquq qaydalarının zəifləməsi ilə əlaqədar cəmiyyətdə baş qaldırmış məmur özbaşınalığına, habelə rüşvətxorluq və korrupsiya elementlərinə qarşı kəskin mübarizə aparırdı. Ulu öndərin şəxsiyyət kimi böyüklüyü həm də onun düzgünlük və haqq-ədalət tərəfdarı kimi çıxış etməsində, zəiflərin, məzlumların müdafiəsinə qalxmasında, qanunun aliliyini daim rəhbər tutmasında özünü göstərirdi. 1981-ci ildə "Literaturnaya qazeta"ya verdiyi məşhur müsahibədə irəli sürdüyü "Qoy, ədalət zəfər çalsın! - tezisini dövrünün ictimai postulatına çevirməyə nail olmuşdu. Həmin illərdə Azərbaycanda milli özünüdərk prosesinə əsaslı təkan verən bir sıra taleyüklü qərarların qəbulu Heydər Əliyevin xalqına və dövlətinə necə bağlı şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Ümummilli lider xalqda milli şüuru oyadan, onda milli keçmişi, kimliyi barədə dolğun hisslər oyadan dövlət atributlarına xüsusi diqqətlə yanaşır, ilk növbədə ana dilinin inkişafına fikir verirdi. Parlamentdə əksər çıxış və məruzələrini Azərbaycan dilində edən Heydər Əliyev bu addımı ilə digər rəhbər vəzifəli şəxslərə, deputatlara da örnək göstərirdi. 1978-ci ildə Azərbaycan SSR-in konstitusiya layihəsi qəbul edilərkən, ulu öndərin Azərbaycan dilinin bu ali sənəddə ana dili kimi təsbit edilməsi üçün göstərdiyi qətiyyəti də xüsusi xatırlatmaq lazımdır. Gərgin keçən müzakirələrdə Heydər Əliyev keçmiş İttifaq rəhbərliyini bu müddəanın saxlanmasının vacibliyinə inandıra bilmişdi. Çox sonralar ulu öndər Heydər Əliyev həmin cəsarətli addımını belə izah edirdi: *"Azərbaycan dilinin dövlət dili kimi qeyd olunması böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur. Ancaq mən o vaxt Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, bu dövlət dilinin Azərbaycan dili olduğunu da konstitusiyamıza yazmalıyıq və yazacağıq".*

Ötən əsrin nüfuzlu dövlət xadimlərindən olmuş Uinston Çörçil demişdir ki, "Siyasətçi növbəti seçkilər, əsl lider isə gələcək nəsillər barədə düşünür". Böyük siyasi liderlər üçün səciyyəvi cəhətlərdən biri də siyasi intuisiya və uzaqgörənlik, hadisələrin gedişinə təsir göstərmək və ya onu qabaqlamaq bacarığıdır. Ümumilikdə, Heydər Əliyevin rəhbərliyi altında 70-80-ci illərdə həyata keçirilmiş kompleks tədbirlər respublikamızın ötən əsrin 90-cı illərə doğru müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratmışdı.

Antik yunan filosofu Sokrat hesab edirdi ki, siyasət insanları inandırmaq, müəyyən məqsədlər naminə səfərbər etmək, ictimai şüurda pozitiv dönüş yaratmaq vasitəsidir. 1990-cı ilin Yanvarında - İmperiyanın qanlı əməlinə etiraz bildirmək üçün ailəsi ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin qarşısına gələn Heydər Əliyev daxilən milli ideallara bağlı şəxsiyyət olduğunu təsdiqlədi. Bu faciədən sonra Heydər Əliyevi şantaj edərək onun Vətənə qayıtmasına imkan vermir, hansısa şəkildə onun müdafiəsinə qalxanları təqib və təzyiqlərlə üz-üzə qoyurdular. Lakin böyük şəxsiyyət heç bir təhdid və təqibdən çəkinmirdi. Ümummilli lider bütün maneələri dəf edərək Vətəni Azərbaycana - dünyaya göz açdığı məkana, qədim Naxçıvan torpağına qayıtdı. Ötən əsrin 80-cı illərinin sonu, 90-cı illərinin əvvəlində Naxçıvan Muxtar Respublikası çətin, ağır və acınacaqlı vəziyyətdə yaşayırdı. Muxtar respublika, demək olar ki, Azərbaycan rəhbərliyi tərəfindən tamamilə unudulmuş, hər an itirilmək təhlükəsi ilə üz-üzə dayanmışdı. Bu tarixi şəxsiyyətin Naxçıvana gəlişi blokada şəraitində yaşayan, dözülməz problemləri ilə baş-başa qalan naxçıvanlılara ilahi bir ruh gətirdi. Ümidsizliyə qapılmış insanların ürəyində sanki ümid çırağı yanmağa başladı.

1990-cı ildə Azərbaycan Ali Sovetinə keçirilən seçkilər zamanı naxçıvanlılar Heydər Əliyevi deputat seçdilər. Böyük öndərin səyi nəticəsində hələ 1991-ci ilin 17 noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yekdil qərarına əsasən müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımız böyük uzaqgörənliklə ilk dəfə muxtar respublikanın rəsmi bayrağı kimi qəbul edildi. Naxçıvan Muxtar Respublikası İttifaqın qalıb-qalmaması barədə səsvermə prosesində iştirakdan imtina edən yeganə məkan oldu, "Yeni ittifaq müqaviləsi"nə cəsarətlə, qətiyyətlə "Yox!" - dedi. Sovet qoşun hissələrinin muxtar respublikadan çıxarılması, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymətin verilməsi də Heydər Əliyevin Azərbaycan xalqına əvəzsiz payı idi.

Həmin illərdə respublikanın günbəgün uçuruma yuvarlandığı, insanların çörəklə imtahana çəkildiyi bir vaxtda Naxçıvan Muxtar Respublikasında həyata keçirilən islahatlar, qonşu dövlətlərlə qurulan iqtisadi-siyasi münasibətlər, iqtisadiyyatda əldə edilən müsbət dəyişikliklər fonunda Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə gəlməsi ölkə vətəndaşlarının ümumi arzusuna çevrilmişdi. Ozamankı böhranlı və ağır şəraitdə respublikanın gələcəyini düşünən, reallığı adekvat qiymətləndirməyi bacaran nüfuzlu ziyalılarla yanaşı, biz gənclər də xalqın düçar olduğu bəlalardan qurtulması üçün çıxış yolunu məhz ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışında görürdük.

Nəhayət, xalqın təkidli tələbi və istəyi ilə 1993-cü ilin 9 iyununda Naxçıvandan Bakıya gələn Heydər Əliyev yorulmaq bilmədən, qətiyyət və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürdü. Ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsinə, ictimai-siyasi sabitliyin tam bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə nail oldu. Ulu öndər Heydər Əliyev məhz bu mərhələdən etibarən de-yure mövcud olan Azərbaycanı de-fakto qurmağa, onun milli dövlətçilik atributlarını formalaşdırmağa başladı.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin 15 iyununda Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədə qanunçuluğun, hüquq qaydalarının bütün sahələrdə möhkəmlənməsini təmin etməklə yanaşı, davamlı inkişaf və tərəqqi üçün möhkəm zəmin hazırladı. Ali Sovetin sədri seçildikdən sonra ulu öndər Heydər Əliyev Xalq Cümhuriyyəti ənənələrinin yaşadılması vacibliyini müdrikliklə bəyan etdi: *"Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm. Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir".*

Böyük filosof Tur Xander zamanında yazırdı ki, *"İdeya və iradə müəyyən sosial bazaya yiyələnəndə siyasətə çevrilir".* Böyük strateq Heydər Əliyevin ümummilli liderlik zirvəsinə yüksəlməsi, xalqın qəlbində özünə möhtəşəm abidə ucaltması həm də onun milli inkişaf strategiyasının banisi olması ilə şərtlənir. Bunun üçünsə, ulu öndər müstəqil Azərbaycan dövlətinin perspektiv inkişaf prioritetlərini açıqlamış, demokratik inkişafa doğru sürət götürmüş müstəqil Azərbaycan dövlətini qısa müddət ərzində möhkəmlənən, qüdrətlənən, regionda, ümumilikdə, dünyada əhəmiyyəti həlledici dərəcədə artan sosial-siyasi reallığa çevirmişdi. İctimai-siyasi sabitliyin əldə olunması, qanunsuz silahlı birləşmələrin ləğvi, iqtisadi problemlərin aradan qaldırılması, cəhbə bölgəsində atəşkəsin əldə edilməsi, dövlət strukturlarının demokratik prinsiplərə uyğunlaşdırılması, hüquqi islahatların dərinləşdirilməsi, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi Heydər Əliyevin milli dövlətçilik qarşısındakı böyük xidmətlərinin əslində çox cüzi qismidir.

Görkəmli fransız filosoflarından Qabriel Marselin maraqlı bir sözü var: "İdeyalar öz ardıcıllarını tapması müqabilində yaşayır". Ulu öndərin milli mənafelərə əsaslanan bu siyasi kursunu son 15 ildə inamla davam etdirərək yeni dövrün tələblərinə uyğun zənginləşdirən dövlət başçısı İlham Əliyev də müstəqil dövlətin yaşaması və inkişaf etməsi üçün, ilk növbədə hüquqi dövlətin yaradılmasına, demokratikləşmə xəttinin daha da dərinləşdirilməsinə xidmət edən genişmiqyaslı islahatlar həyata keçirir. Azərbaycanda siyasi və hüquqi mühitin, qanunvericilik sisteminin liberallaşdırılması, məhkəmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, dövlətin daxili siyasətində insan və vətəndaş amilinin həssaslıqla önə çəkilməsi, hər bir vətəndaşın qanuni mənafeyinin təmini sahəsində həyata keçirilən tədbirlər ölkəyə inamla rəhbərlik edən Azərbaycan Prezidenti İlham Əliyevin qloballaşma dövrünün reallıqlarına uyğun rasional siyasət yürüdən demokratik ruhlu lider olduğunu təsdiqləyir.

"Hüquqi dövlət" nəzəriyyəsinin müəlliflərindən sayılan alman hüquqşünas alimləri - Tom Volker və Redul Molun əsərlərində xüsusi vurğulanır ki, demokratik idarəetmənin başlıca şərtlərindən biri məhz qanunun aliliyinin bütün səviyyələrdə təmin olunması, hüquqi dövlət və vətəndaş cəmiyyəti ideyasının ardıcıl olaraq reallaşdırılmasıdır. Bu mənada, hər bir cəmiyyətdə demokratik dəyişikliklərin başlıca mahiyyəti insan amilini önə, diqqət mərkəzinə çəkməkdir. İdarəetmədə demokratikləşmə prosesləri islahatlara yönəldilirsə, islahatlar cəmiyyətdəki hər bir insanın taleyinə təsirsiz keçmir. Söhbət şəxsiyyət və hakimiyyətin qarşılıqlı əlaqələrinin prinsipcə yeni əsaslarının yaranmasından, şəxsiyyət və dövlətin qarşılıqlı münasibətlərində yeni üslubun formalaşmasından gedir. Bu baxımdan son illərdə Azərbaycanda demokratik transformasiya tamamilə yeni məzmun və forma almışdır. Uğurla gerçəkləşdirilən iqtisadi strategiya nəticəsində vətəndaşların maddi rifah halının yüksəlməsi demokratikləşmə proseslərinin cəmiyyətdə adekvat dərkinə əlverişli zəmin yaradır.

Fransız sərkərdəsi və dövlət xadimi Napoleon demişdir ki, "Siyasətdə dahilik mümkün olanla mümkün olmayanı fərqləndirə bilmək qabiliyyətidir". Bu prizmadan yanaşdıqda, Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı — Azərbaycan Prezidenti cənab İlham Əliyevin dünyanın yeni iqtisadi və siyasi münasibətlər sisteminə dərindən bələd olan praqmatik liderlik keyfiyyətləri, reallığa əsaslanan siyasət yürütməsi qabarıq görünür. 2018-ci il 11 aprel seçkilərində inamlı qələbə qazanaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Əliyev Milli Məclisdə keçirilmiş andiçmə mərasimində demişdir: *"Son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik... Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq".*

Son prezident seçkilərindən dərhal sonra dövlətimizin başçısının qətiyyətlə həyata keçirdiyi kadr islahatları - müasir təfəkkürlü və idarəetmə sahəsində novatorluğu ilə fərqlənən gəncləri irəli çəkməsi ölkədə islahatların miqyasını və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə səmərəliliyi və şəffaflığı təmin etmək niyyətindən irəli gəlir. Hazırkı məsuliyyətli mərhələdə dövlət məmurları qarşısında vətəndaşların mənafeyi naminə daha səy və bacarıqla işləmək, islahatların düzgün, vaxtında reallaşdırılmasını təmin etmək, xalqın xidmətçisi olmaq kimi ümdə vəzifələr müəyyənləşdirilmişdir.

Azərbaycan ötən illərdə kifayət qədər iddialı görünən sosial layihələri reallaşdırmaqla qüdrətli dövlət olduğunu da isbatlamışdır. Əgər 15 il əvvəl kiməsə respublikamızın kosmik peykinin olacağını desəydik, bunu bəlkə də xəyal kimi qarşılayardı. Fəqət, respublikamız yaxın günlərdə orbitə artıq sayca üçüncü peykini buraxmağa hazırlaşır. 15 il əvəl Qubanın Xınalıq kimi ucqar dağ kəndinə müasir yolun çəkiləcəyinə, heç zaman mavi yanacaq üzü görməyən Lerik, Yardımlı kimi rayonlara təbii qazın veriləcəyinə kimisə inandırmaq müşkül məsələ olardı. Fəqət, cənab İlham Əliyevin insan amilini əsas tutan vətənpərvər siyasəti mümkün olmayanı reallığa çevirmiş, əməli işi ilə xalqı yürütdüyü siyasət ətrafında birləşdirə bilmişdir. Azərbaycan dünyada maliyyə böhranının dərinləşdiyi bir dövrdə yeni qlobal iqtisadi və siyasi çağırışlara adekvat olaraq islahatları davam etdirmək, idarəetmə sistemini çevik, şəffaf və səmərəli mexanizmlər əsasında formalaşdırmaq, biznes mühitini liberallaşdırmaq, makroiqtisadi sabitliyi təmin etmək istiqamətində islahatlar aparmaq, milli iqtisadiyyatı yeni şəraitə - neftsiz dövrə uyğunlaşdırmaq istəyini bariz təcəssüm etdirmişdir. Dövlətimizin başçısı cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş son iclasında neft amilindən asılılığın tamamilə azaldılmasının ölkəmiz üçün prioritet məsələlərdən biri olduğunu xüsusi vurğulamışdır: *"Bəzi hallarda sual yaranır ki, indi neftin qiyməti bir qədər sabitləşdi, bu islahatlar davam etdiriləcəkmi, yoxsa yox? Mütləq davam etdiriləcək. Neftin qiyməti bizim üçün əsas amil olmamalıdır və Azərbaycan iqtisadiyyatı elə bir səviyyəyə çatmalıdır ki, neftin istənilən qiyməti bizə ciddi təsir etməsin, yalnız ehtiyatlarımızın artırılmasına xidmət göstərsin".*

Müasir dövrdə hər bir dövlətin tərəqqisi "insan meyarı", yeni həyat keyfiyyətinin, şəxsiyyətin dövlət tərəfindən təmin olunan vəziyyətinin önə çəkilməsi ilə ölçülür. Şəxsiyyət azadlığı, insanların maddi rifah səviyyəsi, hər bir fərdin özünü cəmiyyətdə təsdiqetmə imkanı, insan və vətəndaş hüquqlarının qorunması - "insan meyarının" bu və digər elementləri onu dövlətin inkişafının qiymətləndirilməsinin əsas ünsürlərinə çevirir. Bu mənada, əminliklə demək olar ki, tarixin heç bir mərhələsində Azərbaycan cəmiyyəti son illərdəki kimi sürətli dəyişikliklərə uğramamış, insan amili belə aktual, öncül məsələ kimi gündəmə çıxmamışdır. BMT-nin təsnifatına əsasən, ümumi daxili məhsul istehsalının həcminə görə "Yuxarı inkişaf etmiş ölkələr" qrupuna daxil olan Azərbaycan bu gün özünün milli inkişaf modeli ilə dünya iqtisadiyyatında xüsusi çəkisi olan Malayziya, Cənubi Koreya, Sinqapur və digər ölkələrin sırasına daxil olmaq niyyətindədir. Başqa sözlə, respublikamız yeni dünya nizamının tələb etdiyi vəzifələrin həyata keçirilməsi prosesində öz zəngin imkanlarından səmərəli yararlanır, insan və təbii resurslarına, sosial-iqtisadi bazasına, yerləşdiyi ərazinin təbii-coğrafi şəraitinə güvənərək müasir cəmiyyət formalaşdırmağa çalışır. Dünyanın iqtisadi cazibə və təsir mərkəzinin Qərbdən Şərqə yönəldiyi bir tarixi dönəmdə Azərbaycanın strateji önəmi və bənzərsizliyi onun Avropa ilə Asiyanın qovşağında yerləşməsi, sivil əməkdaşlıq və dialoq məkanına çevrilməsi ilə şərtlənir. Xüsusi vurğulamaq lazımdır ki, bu ilin mart ayında keçirilmiş VI Qlobal Bakı Forumu Azərbaycanın multikulturalizm və tolerantlıq sahəsində əldə etdiyi uğurların müasir dünyaya təqdimatı baxımından geniş imkanlar açmışdır.

*Bütün bunlar göstərir ki, ulu öndər Heydər Əliyevin siyasi ideyalarını uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan hüquqi-siyasi və iqtisadi islahatlar postkeçid mərhələsində ölkədə modernləşmə xəttinin uğurla davam etdirilməsi üçün real zəmin yaratmışdır. Respublikamız qloballaşan dünyanın tərkib hissəsi kimi demokratik inkişaf yolunda inamla irəliləyir, yüksək iqtisadi inkişaf tempinə adekvat olaraq demokratik dəyərləri mənimsəyir. Ölkəmizin ildən-ilə artan sosial-iqtisadi imkanları deməyə əsas verir ki, Azərbaycan modernləşmə mərhələsini də tezliklə başa vuraraq dünyanın ən inkişaf etmiş dövlətləri ilə bir sırada dayanmaq imkanı əldə edəcəkdir.*

**Məhəmməd ƏKBƏROV,**
**Hüquqşünas.**